**Azad AZƏRBAYCAN**
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

24 fevral 2010-cu il N 28 (1711)



# Əziz Əliyev Tərtərdə

## Əsl ziyalılar və təmənnasız insanlar Vətənə xidmət etməkdən yorulmazlar və bu işi şərəf bilərlər

***Rayonumuzun tarixi barədə axtarışlar apararkən böyük bir nəslin Axundovlar nəslinin nümayəndəsi Şəfiqə nənə ilə tanış olduq. Bu xanım-xatun nənənin dərin savadına, geniş dünyagörüşünə, xalqımızın adət-ənənələrinə, folkloruna dərindən bələdliyinə, kübar davranışına və rayonumuzun tarixinə dair zəngin məlumatlarına heyran olmamaq olmur.***

Söhbətlərimizin birində Şəfiqə nənə dedi ki, məşhur həkim və dövlət xadimi Əziz Əliyev bizim evdə olub və atam Fərrux bəy Axundovla görüşüb. Mənə yeganə sağ qalmış Rasim müəllimin telefon nömrəsini verdi. Rasim müəllimlə danışıb görüşdük. Texnika elmləri doktoru Rasim müəllim mənə atası Fərrux bəy və Axundovlar nəsli barədə geniş məlumat verməklə yanaşı mərhum qardaşı tibb elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar həkimi Kazım Axundovun "Şuşa" qəzetinin oktyabr 2007-ci il nömrəsində çıxan "Gözəl insan haqqında xatirələrim" məqaləsini verdi və əlavə olaraq Əziz Əliyevin Tərtərdə olması barədə mənə xeyli əlavə məlumatlar verdi.

***Yazımızın qayəsi Böyük İnsan və və görkəmli dövlət xadimi Əziz Əliyevin Tərtərə gəlməsi və fədakar millət ziyalısı Fərrux bəylə görüşməsi olsa da oxuculara Fərrux bəy barədə qısa məlumat verməyi məqsədə müvafiq hesab elədik.***



Axundov Fərrux Mirzə Həsən oğlu 1884-cü ildə füsunkar Qarabağın dilbər güşəsi Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur. Şuşa Realnı məktəbini və feldşerlik məktəbini bitirmişdir. Pedaqoji fəaliyyətə Tərtərdə başlamış, 1905-ci ildə burada ilk dəfə ibtidai məktəb açmış və eyni zamanda 1901-ci ildə şəhərdə açılmış Rus-teatr məktəbində rus dili dərsi demişdir. Fərrux bəy müəllimliklə yanaşı, həkimliklə də məşğul olmuşdur. Hətta 1918-20-ci illərdə Müsavat ordusunun Şuşadakı və Tərtərdəki hərbi hissələrində tibb məntəqəsi açmışdır. O, 25 il Azadqaraqoyunlu (Azərbaycan Xalq Cümhuriyyətinin ilk daxili işlər naziri Behbud ağa Cavanşirin və atası Azad ağanın kəndi) kəndində "həkim malyariya məntəqəsinin müdiri" işləmişdir. Fərrux bəy otuz il Şuşa, Ağdam, Gəncə, Bərdə və Tərtərdə müəllimlik etmiş, rayonumuzun və bütövlükdə Azərbaycanımızın xalq maarifinin inkişafı tarixində müəyyən iz qoymuşdur.

Bu müqtədir insanın ailəsindən çıxmış 6 oğlu sonralar Azərbaycan elminin müxtəlif sahələrində böyük şöhrət qazanmış alimlər oldular. Na-zim Axundov başda olmaqla Qasım, Kazım, Səlim, Əzim və Rasim müxtəlif sahələrdə elmlər doktoru, professor adına layiq görülmüş və atalarına layiq bir övlad olduqlarını sübut edərək şərəf və ləyaqətlə vətənlərinə xidmət etmişlər. Fərrux bəyin bunlardan başqa 4 qız övladı da Əfiqə, Şəfiqə, Hədiqə, Rəfiqə ali təhsil almışlar.

***Bu nəslin haqqında cild-cild əsərlər yazmaq olar. Yazımızın qayəsi bu işıqlı insanın daha bir millət cəfakeşi və fədaisi olan Əziz Əliyevlə görüşü olduğundan oxucularımızı bu möhtəşəm təşkilatçılıq və rəhbərlik qabiliyyətinə malik insan barədə məlumatlandırmağı nəzərə alaraq (onsuzda hamı tərəfindən yaxşı tanınır) qısa məlumat veririk.***

Əliyev Əziz Məmmədkərim oğlu 1897-ci ildə İrəvan şəhərində anadan olmuşdur. 1938-ci ildə Tibb elmləri doktoru, professor, 1929-38-ci illərdə Azərbaycan SSR Səhiyyə naziri, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun və ADU-nun rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi (1941-42), Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi (1942-1948), ÜİK (b) PMK-nın inspektoru (1949-50) Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini (1950-51), Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru (1952-56) olmuşdur. 1956-cı ildən ömrünün sonuna qədər (1962) Azərbaycan Həkimləri Təkmilləşdirmə institutunun direktoru olmuşdur. SSRİ Ali Sovetinin (1-3-cü çağırış) və Dağıstan MSSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur. İki dəfə o dövrün ən böyük mükafatı olan Lenin ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni" "1-ci dərəcəli Vətən müharibəsi" ordeni və medallarla təltif olunmuşdur. Mahaçqala şəhərində küçələrdən biri böyük insanın adını daşıyır. Mərhum tibb elmləri doktoru, professor Kazım Axundovun yazdıqlarından və Şəfiqə nənə ilə Rasim müəllimin dediklərini ipə-sapa düzüb, xalqının fədaisi və cəfakeşləri olmuş bu iki işıqlı insanın görüşmələrini oxuculara çatdırmaq istəyirəm.

1941-ci ilin sonları idi. Böyük Vətən müharibəsinin ən ağır dövrü idi. Sovet-Alman cəbhəsinin bütün sahələrində almanlar üstünlüyü ələ alaraq Moskvanın 18 km-liyinə qədər gəlib çıxmışdılar. Dəmir yumruq altında birləşmiş bütün ölkə "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı altında gecə-gündüz yorulmadan çalışırdı. Arxa cəbhədə bütün insanlar, əsasən qocalar, qadınlar və uşaqlar ağılasığmaz əmək və qəhrəmanlıqlar göstərərək hər bir çətinliyə dözərək dahi rəhbər Stalinin onları qələbəyə aparacağına inanırdılar. Bütün ölkəni qıtlıq və aclıq bürümüşdü. Fədakarlıqla çalışan bütün insanlar hər şeyi cəbhəyə göndərir və qələbəyə ümidlərini kəsmirdilər. Evində bir ovuc unu olan onu qonşusu ilə bölürdü.

Nəinki Tərtərdə, həm də qonşu rayonlarda yaxşı həkim kimi Fərrux bəy 2 at və 2 inək, həmçinin xeyli toyuq-cücə saxlayrdı. Atın birini dərs dediyi məktəblərə gedərkən, birini də həkim kimi kəndi və ətraf bölgələri gəzərkən minirdi. İnəyin birinin südünü ailəsilə, digərinin südünü isə Azadqaraqoyunlu kəndində müdir işlədiyi feldşer məntəqəsinin kiçik otağında 4 çarpayılıq ev xəstəxanasında müalicə olunan xəstələrinə verirdi. Ailəsi 10 uşaqdan ibarət olsa da evdə bişən yeməkdən və qənaət edilmiş çörəkdən xəstələrinə verirdi. Onun bu comərdliyi və səxavəti hamıya bəlli idi. Həkimliyin dərinliklərinə bələd olan Fərrux bəy heç zaman müalicə etdiyi xəstələrindən pul və heç bir şey almazdı. Malyariyanın tüğyan etdiyi zamanlarda gecəsi-gündüzü olmadan çalışır, hamıya yardım edərdi.

"Rayon qəzeti olan" "Qızıl Bayraq" qəzetinin 1941-ci il 16 aprel nömrəsində "Qızdırma ilə mübarizə aparmalı" məqaləsində feldşer Fərrux bəy Axundovun Azadqaraqoyunluda 1984 nəfəri müalicə etdiyi yazılmışdır". Xalqını sevən belə fədakar insanın yorulmadan, özü də təmənnasız çalışması, "yuxarıların" da diqqətini cəlb eləmişdi.

__"... 1941-ci il dekabr ayının axırlarında Tərtər rayonunun Azadqaraqoyunlu kəndində tibb məntəqəsi qarşısında qara rəngli "M-1" markalı bir maşın dayandı. Maşından ortaboylu, dolu bədənli, qara qolifeyi salvar, qara köynək, uzunboğaz xıram-sapoq geyinmiş bir nəfər düşdü. Onu dərhal tanıdım. Bu Əziz Əliyev idi".__

Fərrux bəyin oğlu, sonralar tibb elmləri doktoru, professor olan Kazım Axundovun "Gözəl İnsan haqqında xatirələrim" yazısından götürülmüş bu sətirlərdə böyük İnsan Əziz Əliyevin siması gözlərimiz önündə canlanır.

Rasim müəllim söyləyir ki, Azadqaraqoyunlu kəndində ikimərtəbəli evin bir otağını tibb məntəqəsi və xəstəxana eləmişdi, ikinci otaqda isə bütün ailəmiz qalırdı. Əziz Əliyev yuxarı qalxıb tibb məntəqəsinə baxır. Otağın səliqəsi və təmizliyi xoşuna gəlir. Sonra Fərrux bəyə ac olduğunu və onlarda çörək kəsmək istədiyini bildirir. Hörmətli qonaq otağa daxil olan kimi ocağın üstündə qaynayan qazanın qapağını açıb gülə-gülə deyir.

*- Çoxdandır dovğa yemirəm, yaxşı oldu indi doyunca yeyərəm.*

Maya xala çəkinə-çəkinə pencərlə bişirilən horranın içərisinə pencər töküb 12 nəfərlik ailəyə yemək hazırlamışdı. Əziz Əliyev evdə çörək olmadığını hiss edib gülə-gülə dedi: Başa düşürəm bacı, çörəyiniz yoxdur, müvəqqəti çətinlikdir, dözmək lazımdır. Bu böyük qəlbli insan iştahla bu "dovğa"dan bir iki qaşıq alıb ayağa durdu.

*- Çox sağ olun. Mənim işim çoxdur, rayon mərkəzinə gedirəm. Sabah raykoma gəl, sizinlə işim var.*

Yorulmaq bilmədən çalışan və həmişə işində intizamlı olan Fərrux bəy ertəsi gün həm malyariyadan əziyyət çəkən xəstələrə toxunmalı olduğu və məktəbdə dərsi olduğuna görə raykoma, Əziz Əliyevin görüşünə oğlu və yanında feldşer köməkçisi işləyən Kazımı göndərdi. Kazım Axundov öz xatirələrində bu görüşü belə xatırlayır: "Səhər deyildiyi vaxt katibin köməkçisinə yaxınlaşıb gəldiyimi Əziz Əliyevə bildirməyi xahiş edirəm. Köməkçi iclas olduğunu deyib, bunu edə bilməyəcəyini söylədikdə onu başa saldım ki, məni Əziz Əliyev özü bu iclasa çağırıb. Məni içəri buraxdılar. Əziz Əliyev danışırdı. O, məni içərdəkilərə təqdim edib:

*- Dünən mən yemək vaxtı onlara getmişdim ki, görüm bu ailədə çörək var, ya yox? Bunlar nə yeyir? Burda da çörək olmadı. Güman edirdim ki, Fərrux kişi uşaqlarının qabağına bir tikə çörək tapıb qoya bilər. Ancaq belə olmadı. Südünə, qatığına bir ovuc un qatmaqla on beş nəfərlik ailəni saxlaya bilir ("Şuşa qəzeti". Oktyabr -2007. səh 6).*

Əziz Əliyev 6 aydan qalma hökumətin ayırdığı taxıl normasını bir maşına yığdırıb rayonun bütün tibb məntəqələrinə paylamağı Kazıma tapşırır.

Sonralar bu böyük insanın yanında işləmək xoşbəxtliyinə nail olan Kazım Axundov bu tapşırığı layiqincə yerinə yetirib, axşam hər işə çox ciddi yanaşan atası Fərrux bəyə məlumat verir.

Son dərəcəyə humanist, nəcib və namuslu bir insan olmaqla yanaşı, xalqın və dövlətini sevən Əziz Əliyev taxıl norması və tibbi ləvazimatların kənd feldşer məntəqələrinə çatması üçün əlindən gələni əsirgəmirdi.

Fərrux bəyin qızı, uzun müddət rayon apteklərində əczaçı kimi çalışan Şəfiqə nənə mənə söylədi ki, sonralar Əziz Əliyey bir neçə dəfə bizim evdə oldu. Hər dəfə özü ilə xeyli lazımlı və xeyli az tapılan dərmanlar da gətirər və ailəmizə verilməli olan ərzaq normasının vaxtlı-vaxtında verilib-verilməməsini öyrənirdi. Əziz Əliyevin çox prinsipial və ciddi adam olduğunu bilən rayon rəhbərliyi bizim normanın həmişə vaxtında çatması üçün əlindən gələni əsirgəmirdi.

Şəfiqə nənə deyir ki, yaxın 12 rayonun rəhbər işçiləri evimizə gəlib atamdan xahiş edirdilər ki, Əziz Əliyevdən onların da rayonlarına tibbi yardım etmələrini xahiş etsin. Atam özündə olan artıq tibbi ləvazimatlardan ehtiyacı olan tibb məntəqələrinə verməklə yanaşı yeri düşdükdə bu millətini sevən incə qəlbli insandan digər rayonlara da yardım etməyi xahiş edirdi.

__*Fərrux bəy sonralar da Əziz Əliyevlə əlaqə saxlayırdı.*__

Müharibənin qızğın vaxtında Əziz Əliyevi Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi vəzifəsinə təyin edirlər (1942). Bu təyinatın çox maraqlı və həm də gizli məqamları vardır. İndiyə qədər Azərbaycanın milli tarix konsepsiyası olmadığından (tarixşünaslığımız və tarixçi alimlərimizin böyük əksəriyyəti hələ də rus və sovet hakimiyyətinin ideologiyası nəticəsində formalaşmış "evrosentrizm", "sovet ideologiyasının prinsiplərinə xidmət", "Forsmeylli Konsepsiyadan" uzaqlaşa bilməmişlər) tariximizin və millətimizin qürur qaynağı olan bir sıra şəxsiyyətlər hələ də öz qiymətini ala bilməyib.

Böyük Vətən müharibəsi başlayan kimi bütün Qafqazdan və xüsusilə Gürcüstandan bütün türk xalqlarını "etibarsız millət" kimi (Osmanlıların və almanların agenti damğası adı ilə) Sibirə sürgün etmişdilər (Türkləri görməyə gözü olmayan Stalin bu məkrli planı ilə Gürcüstanın mərkəzi Tbilisidə yaşayan qədim və yerli Türk əhalisini və Nadir şah tərəfindən Kartli-Kaxetiya çarı II İrakliyə hədiyyə edilmiş Borçalının türk əhalisini sürgün etməklə etnik təmizləmə aparmış və bu qədim türk torpaqlarını gürcülərə vermişdi). Bir gecənin içində bütün çeçen xalqı sürgün edilmişdi. İndi növbə Dağıstanın türk müsəlman əhalisinə və müsəlman ləzgi xalqlarının idi. Stalinin xüsusi hörmət bəslədiyi və inandığı Mir Cəfər Bağırov bu "qəddar və Türk dünyasının quduz düşməni" olan Stalini mənfur fikrindən döndərməyi bacarır və xüsusi qabiliyyətinə, işgüzarlığına, millətsevərliyinə və təmizliyinə bələd olduğu və hörmətlə yanaşdığı misilsiz təşkilatçılıq qabiliyyəti olan Əziz Əliyevi Dağıstana birinci katib vəzifəsinə göndərilməsinə nail olur. (Sonralar bir çox müəlliflər bu faktı guya Bağırov onun yerinə keçə biləcəyindən qorxduğu üçün qələmə veriblər. Mir Cəfər Bağırov heç kimdən qorxmayıb və əksinə Stalindən başqa bütün İttifaqın yuxarı eşalonu Bağırovdan qorxurmuş).

Qarşısına çox böyük missiya qoyulmuş, nəhəng iş qabiliyyətinə malik bu yorulmaz insan tezliklə bütün dağlı xalqlarının sevimlisi olaraq Dağıstanı deportasiya olunmaqdan xilas etdi. Onun kəndbəkənd, aulbaaul gəzərək hərbi xidmətdən və müharibəyə getməkdən yayınıb dağlarda, meşələrdə gizlənmiş dağlıları hərbi səfərbərliyə cəlb etməsi və dağlıların cəbhələrdə igidliklə vuruşması həm də bu işi xüsusi nəzarətdə saxlayan Stalini dağlıları sürgün etmək fikrindən birdəfəlik daşındırdı. Partiya və hökumət bu xidmətlərinə görə Əziz Əliyevi orden və medallarla mükafatlandırdı.

Hörmətli oxucular, Əziz Əliyevin haqqında çoxlu yazılar yazılmışdır. Əslində bu görkəmli şəxsiyyətin haqqında daha böyük, fundamental əsər yazmaq lazımdır və xalqımızın bu oğlunun bütün fəaliyyəti geniş əks olunmalıdır. Bizim bu kiçik yazımızın əsas qayəsi bu millət vəkili fədaisi olan şəxsin əyalət həkiminin fədakar əməyini qiymətləndirərək onu yoluxması və lazım olan köməkliyi vaxtında etməsi və bununla insanları görə biləcəyi işdən daha artığına sövq etməsi bacarığı olmuşdur.

***Əziz Əliyev sonralar da, Dağıstandan vətənə qayıtdıqdan sonra da özü kimi yorulmaz və xalqına təmənnasız xidmət etməkdən yorulmayan Fərrux bəylə əlaqə saxlamış və onun oğlu tibb elmləri doktoru, professor Kazım Axundovu yanına aparmış, ömrünün sonuna kimi onunla birgə işləmişdir. İndi onların heç biri - nə Əziz Əliyev, nə Fərrux bəy, nə də Kazım Axundov həyatda yoxdur. Allah hamısına rəhmət eləsin. Onların xatirələri bu gün də yaşayır və həmişə yaşayacaqdır.***

Bu yazımızın sonunda Tərtər rayon rəhbərliyindən onu xahiş edirik ki, uzun müddət Tərtər təhsilinə və tibbinə xidmət etmiş Fərrux bəyin xidmətlərini nəzərə alaraq onun işlədiyi Azadqaraqoyunlu tibb məntəqəsinə onun adı verilsin. Bu həm də onun mənəvi haqqıdır! Ümidvarıq ki, bu təklifimiz diqqətdən kənarda qalmayacaq. Yaxşı olun!

__*Yaxşıları nə Allah unutmaz, nə də xalqımız.*__

**Qələndər SƏLİMOĞLU**